RESPUBLİKA 12 iyun 2015-ci il

# Azərbaycan dünyanın diqqət mərkəzində



Son illər bütün dünyada sivilizasiyalararası dialoq mövzusu ətrafında aparılan diskussiyalar XXI əsrdə sivilizasiyalararası dialoq ideyasının mühüm aktuallıq kəsb etməsindən xəbər verir. Qlobal problemlərin bütün dünya xalqlarının birgə səyləri ilə həll edilməsi bu gün zərurətə çevrilmiş, sülh və əmin-amanlıq, mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsi üçün belə bir dialoq qaçılmaz olmuşdur.

Azərbaycanın bu gün Qərblə Şərq, Qərblə İslam Dünyası arasında önəmli, etibarlı körpü rolu oynaması, sivilizasiyalar və mədəniyyətlərarası dialoqla bağlı bir çox ölkələrə nümunə olması haqqında artıq dünyada müsbət təsəvvürlər formalaşmışdır.

Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzinə çevrilmişdir. Bu il may ayının 18-də Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxışında demişdir: "Bu gün yüzdən artıq dövlətin nümayəndələri Bakıdadır. Bu isə bir daha belə müzakirələrin vacibliyini təsdiqləyir. Əminəm ki, mədəniyyətlərarası münasibətlərə müsbət dinamika verilməsi üçün forumun keçirildiyi günlərdə dəyərli fikirlər səslənəcək. Azərbaycan bu sahədə öz səylərini hər zaman göstərir və xalqları, dövlətləri, sivilizasiyaları bir araya gətirməyə çalışır".

Ümumiyyətlə, respublikamızda keçirilən bütün beynəlxalq əhəmiyyətli tədbirlərdə Azərbaycan dünya xalqlarını bir araya yığmaqla həm sülhü, əmin-amanlığı və birgəyaşayış maraqlarını qorumağa səsləyir, eyni zamanda özünün tarixini, mədəniyyətini nümayiş etdirir.

Bu gün start götürən "Bakı-2015" ilk Avropa Oyunları da bu mənada böyük tarixi hadisədir. Aprel ayının 26-da başlayan Avropa Oyunlarının məşəlinin ölkə səyahəti başa çatmış, bütün bölgələrimizi gəzən və hər yerdə böyük coşqu ilə qarşılanan məşəl yenidən Bakıya gətirilmişdir. Bu isə o deməkdir ki, Bakı Olimpiya Stadionunda onun alovlandırılmasına lap az qalır. Mədəniyyət ocaqları da bu böyük tədbirə ciddi hazırlaşıblar. Bununla bağlı mədəniyyət və turizm naziri Əbülfəs Qarayev demişdir: "Biz çalışırıq ki, ölkəmizə gələn həm idmançılar, həm qonaqlar Azərbaycanın çeşidli mədəniyyətinin zənginliyi ilə tanış olsunlar. Bundan əlavə, beynəlxalq miqyasda tanınan bir neçə musiqiçi Avropa Oyunlarının davam etdiyi günlərdə Azərbaycana təşrif buyuracaq, burada onların konsertləri təşkil olunacaq".

Məlumdur ki, ölkəmizdə idman və Olimpiya hərəkatının dəstəklənməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu mənada Avropanın idman və mədəniyyət dünyası üçün tarixi bir hadisə kimi dəyərləndirilən I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar Azərbaycanın beynəlxalq və Avropa Olimpiya hərəkatına sadiqliyinə, idman və mədəniyyət sahəsində reallaşdırdığı layihələrə, əldə olunmuş uğurlara verilən yüksək qiymətdir.

I Avropa Oyunlarının ölkəmizdə keçirilməsi hər şeydən əvvəl, Odlar yurdunun dünyada təbliğ olunmasına imkanlar yaradır. Oyunlar zamanı Azərbaycana 10 minədək idmançı, məşqçi, rəsmi şəxslər, mətbuat işçiləri gələcək və buradan müəyyən təəssüratlarla vətənlərinə dönəcəklər. Bu möhtəşəm idman yarışması ölkəmizin qlobal miqyasda informasiya mübarizəsində gücünü artıracaq, sağlam fikirli tərəfdaşlarımızın sayının çoxalmasına səbəb olacaqdır. Bu oyunların ən böyük əhəmiyyəti Azərbaycan haqqında düşmən qüvvələrin formalaşdırdığı yanlış fikirlərin aradan qaldırılmasına imkan yaratmasıdır. Gələn qonaqlar Azərbaycanda gedən iqtisadi inkişafı, uğurlarımızı, ölkəmizə milli zəmində heç bir problemin olmadığını görəcək və burada gördüklərini də öz ölkələrində danışacaqlar. Bir sözlə, ilk Avropa Oyunları Azərbaycanı nəinki Avropada, həm də bütün dünyada daha yaxşı tanıdacaqdır.

İyunun 9-da Atletlər Kəndində birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşündə çıxışı zamanı ölkə başçısı İlham Əliyev demişdir: "Azərbaycan Avropanı qəbul etməyə hazırdır. Əminəm ki, dünya miqyasında ən gözəl oyunları biz keçirəcəyik. Baxmayaraq ki, oyunların hazırlanması üçün cəmi iki il yarım vaxtımız var idi. Ancaq xalqımız, dövlətimiz öz gücünü göstərdi. Biz qısa müddət ərzində dünya səviyyəli, Yay Olimpiya Oyunları səviyyəsində oyunlar hazırlamışıq və uğurla keçirəcəyik".

Bəli, Avropa Oyunları Azərbaycanda ümumxalq məsələsinə çevrilib və bu işə hər kəs öz töhfəsini verməyə çalışır. Rəhbərlik etdiyim İbrahim Əbilov adına Mədəniyyət Mərkəzi də "Bakı-2015" I Avropa Oyunlarına ciddi hazırlıq görüb.

Birinci Avropa Oyunlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb, qısa müddətdə böyük işlər reallaşdırılıb. Mən inanıram ki, idmançılarımız öz uğurları ilə bütün xalqımızı sevindirəcəklər.

**Aida MURADOVA,**
**İbrahim Əbilov adına Mədəniyyət Mərkəzinin direktoru.**